# Xülya

mən, gecə, ulduz, asman, xülya
doğmayıq beşimizdə sevdalı
bu gecəysə kədərliyəm guya
kirli camdan gözüm baxır mədhuş
yuxusuz canımı aparmır huş
dalmışam fikrə sirli, mənalı

gecə sərxoş damız - damız calanır
təşnə canın qırıq piyaləsinə
üz tutur ulduz, ay yanır utanır
titrəşən kölgələr axır başıma
baxıram «leyl» adlı yoldaşıma
bürünür cism qorxu haləsinə

o sükut içrə naleyi şəbgir
həmnəva oldu şivəni bumə
yarasa çəkdi bir yaralı səfir
qaqqa çəkməkdə qarə bayquşlar
şin-ı üşşaq dən yorulmuşlar
çağırırlar məni d'm-ı şümə

çalxanır göy dəniz kimi daşqın
hirsli, iztirablı, məvvac
fikr alüftə, xatirim çaşqın
gecə ğərq-ı sükut, mən yalqız
tökülür üstümə həzin bir sız
o mənə, mən isə ona möhtac

o qaranlıq dəniz, mən isə mayaq
sübhədək mən yanıb işıq saçıram
o mənə iztirablı anda dayaq
bu gecəyəsə dayaqsızam lakin
əl ələ vermiş indi küfr ilə kin

lə`n u nifrin yağır buludlardan
nə`şlər diklənir təbəssümlə
səpilir qanlı ətr rüzgardan
nəqş olur qorxu lövh-ı övhamda
gecədə, məndə, dəmdə, ilhamda,
mat u məbhut qalmışıq cümlə

rəqs edir qanlı ruhlar, əşbah
oynaşır buzlu kölgələrdə o dəm
diş qıcırdır bu mənzərə nagah
çah-i babildən aslanan harut
çalınır sur, çaxnaşır nasut
şeytan artıq olub məsihadəm

istirəm son qoyam bu sözlərimə
görsənir bir şu`a-i müstə`cəl
mürtəiş bir qaraltı gözlərimə
məhv nurun soxur yaxınlaşaraq
gözlrim tək içındə qan daşaraq
çağırır bir kəsik qırılmış əl

1362 – Təbriz